# USAID Cənubi Qafqazda pozuculuqla məşğuldur



ABŞ-nin USAID təşkilatı hər zaman ayrı-ayrı ölkələrdə dövlət çevrilişlərinə cəhdlər, qarşıdurma və iğtişaşlarla gündəmə gəlir. Bütün bunlar sübut edir ki, bu təşkilatın məqsədi heç də fəaliyyət göstərdiyi ölkələrdə demokratik dəyərlərin inkişafına dəstək vermək deyil. USAID-in əsas işi fəaliyyət göstərdiyi ölkələrdə müxtəlif təzyiq alətləri yaratmaq və cəmiyyətlərdə təslimçilik ruhu formalaşdırmaqdır. Bir sözlə, USAID-in məqsədi aydın və xoş deyil.

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu "Azərbaycan"a açıqlamasında bildirib ki, ABŞ Avropadakı bəlli dairələrin yaxından iştirakı və dəstəyi ilə ayrı-ayrı ölkələrdə loyal siyasi rejimlər formalaşdırmağa çalışır. Belə rejimlər qurmaqda məqsəd isə, təbii ki, milli maraqlara deyil, elə ABŞ-nin maraqlarına xidmət etməkdir. Bu, yenilik deyil, müxtəlif coğrafiyalarda, xüsusilə də ABŞ üçün əhəmiyyət kəsb edən ölkələrdə zaman-zaman müşahidə edilən təcrübədir.

"Bəzi təşkilatlar dövlət çevrilişləri vasitəsilə ayrı-ayrı ölkələrdə rejimlərin dəyişdirilməsi istiqamətində cəhdlər edir və bir çox halda bu cəhdlər nəticə verir. Xüsusilə postsovet ölkələrində ABŞ-nin təşkilati və maliyyə dəstəyi ilə belə rəngli inqilablar baş verib. Məsələn, Gürcüstanda, Qırğızıstanda, Ukraynada baş vermiş belə inqilablar həmin ölkələrdə loyal rejimlərin formalaşdırılması ilə nəticələnib. Bu istiqamətdə işlər müxtəlif təşkilatlar və fondlar vasitəsilə həyata keçirilir. Bu mənada USAID-i xüsusi qeyd etmək lazımdır", - deyə deputat bildirib.

Elşad Mirbəşiroğlu deyib ki, USAID müxtəlif ölkələrdə narazı kütlələr formalaşdırmaq və təşkilatlandırmaq, onlara inqilab taktikalarını aşılamaq və nəticədə kütləvi iğtişaşlar yaratmaqla məşğuldur: "Bu, artıq tam deşifrə olunub. Bir neçə gün öncə USAID-in Gürcüstanda pozuculuq cəhdləri göstərməsi onların əsl məqsədlərinin nədən ibarət olduğunu bir daha sübut edir. Gürcüstan rəhbərliyinin məsələ ilə bağlı aydın mövqeyi də bu həqiqətləri təsdiqləyir. Buradan aydın olur ki, USAID müxtəlif ölkələrdə, eləcə də Cənubi Qafqaz regionunda dağıdıcılıq fəaliyyəti ilə məşğul olur".

Deputatın dediyinə görə, bu təşkilat Mərkəzi Kəşfiyyat İdarəsi və Soros Fondu ilə sıx əlaqədədir: "ABŞ-nin Demokratiyaya Dəstək Fondunun rəhbəri də utanmadan bildirib ki, bu gün onların məşğul olduqları fəaliyyəti 20-25 il öncə məhz Mərkəzi Kəşfiyyat İdarəsi həyata keçirirdi. Yəni bu təşkilat və fondlar demokratiyaya dəstək pərdəsi altında, əslində, məkrli planlarını həyata keçirirlər. Postsovet məkanının bir sıra ölkələrindəki təcrübələr göstərir ki, onlar fəaliyyət göstərdikləri ölkələrə heç də demokratik dəyərlər gətirmək niyyətində deyillər. Əksinə, həmin cəmiyyətləri parçalamaqla aralarına nifaq salmağa cəhd göstərirlər".

Elşad Mirbəşiroğlu əlavə edib ki, USAID Azərbaycana qarşı da həmişə qərəzli mövqeyi ilə seçilib və bunu gizlətməyib. Təsadüfi deyil ki, USAID rəhbəri Samanta Pauer Ermənistana səfəri zamanı ölkəmizin ünvanına sərt və tam əsassız ittihamlar səsləndirib. Eyni zamanda saxta erməni soyqırımı ilə bağlı şou yaratmaqla məşğul olub, bu "soyqırımı"nın tanıdılması istiqamətində canfəşanlıq göstərib. Bütün bu faktlar USAID-in dağıdıcı fəaliyyət göstərən bir təşkilat olduğunu təsdiqləyir.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 6 oktyabr.- S.6.